# Sarsılmaz birliyimizin növbəti qürur səhifəsi

*Son illərdə "bir millət, iki dövlət" şüarı ilə Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətləri daha da konkret və real şəkildə özünü göstərməyə başlayıb. 6 fevral 2023-cü ildə Türkiyədə baş vermiş əsrin fəlakəti zamanı da ilk yardım edən ölkə Azərbaycan olub. Həmin dövrdə azərbaycanlı axtarış-xilasetmə qrupları zəlzələ bölgəsində sanki öz ölkələrində xidmət göstərirmiş kimi fədakarcasına çalışdılar.*



Azərbaycan xüsusilə Kahramanmaraşın zəlzələ bölgəsinin bərpası istiqamətində mühüm addımlar atdı. Kahramanmaraşın Onikişubat və Dulkadiroğlu rayonlarının kəsişdiyi Azərbaycan Bulvarından ilham alınaraq adlandırılan və Hayrullah məhəlləsində inşasına başlanılan "Azərbaycan" məhəlləsindəki zəlzələdən zərər çəkmiş insanlar üçün nəzərdə tutulan yaşayış evlərinin tikintisi artıq başa çatdırılıb və təhvil verilib. Kahramanmaraş sadəcə bir şəhər deyil, Azərbaycan-Türkiyə qardaşlığının ürəklərdəki əks-sədasıdır. Dünyada və bölgəmizdəki vəziyyət necə olursa-olsun, bizim üçün prioritet bəllidir. Atılan bu addımlardan da göründüyü kimi, Türkiyə üçün Qarabağ nədirsə, Azərbaycan üçün də Kahramanmaraş o qədər önəmli və dəyərli bir məskənə çevrilib.

Prezident İlham Əliyevin dost və qardaş Türkiyəyə həyata keçirdiyi səfər son dərəcə mənalı bir tablo ilə yadda qaldı. Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə çıxış edən dövlət başçımız qeyd etdi ki, Azərbaycan və Türkiyə daim çiyin-çiyinə mübarizə aparır, sevincli və kədərli anlarda bir-birinə sarsılmaz tellərlə bağlı olaraq dünyaya nümunə göstərir. Xüsusilə Kahramanmaraşda baş vermiş zəlzələnin ardından Azərbaycanın dərhal Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarını səfərbər etməsi və maddi-mənəvi yardımların qardaş Türkiyəyə çatdırılması bunun ən konkret nümunəsidir.

**Hasan OKTAY,**
**Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri.**

Respublika.- 2025.- 20 iyun (№ 125).- S.5.